**Orucoğlu, Z**. Son damla qanına qədər // Respublika. - 2025. - 18 iyul. - **№ 146**. - S. 11.

**İkinci Qarabağ müharibəsində Vətənin, millətin yolunda canını fəda edən minlərlə qəhrəman oğullardan biri də Nihad Əhmədovdur.**

Astaranın Alaşa kəndində dünyaya göz açan bu Vətən sevdalısının adını böyük də, kiçik də fəxrlə çəkir, onun şərəfli həyat yolunu örnək götürürlər. Nəsibi möhtəşəm şəhidlik zirvəsi olan Nihadın 24 yaşı tamam oldu.

Doğma Alaşa kəndində baş qoyduğu müqəddəs yer ziyarət edildi, məzarına təzə güllərdən çələng düzüldü. Mərasimdə bildirildi ki, Nihad Vətənini canından artıq sevirdi və bu yolda şəhid olmağı özünə şərəf sayırdı. Odur ki, 44 günlük haqq savaşımız başlanan kimi özünü od-alovun içinə atdı. Yağı düşmənlə qanının son damlasına qədər döyüşüb əbədiyyət adlı dünyasına qovuşdu.

Nihad Fuad oğlu Əhmədov 3 oktyabr 2018-ci ildə həqiqi hərbi xidmətə çağırılıb, təmas xəttində düşmənlə üzbəüz Tərtər bölgəsində yerləşən "N" saylı hərbi hissədə doğma Azərbaycanın keşiyində durub. 2020-ci ildə xidməti borcunu layiqincə yerinə yetirən Nihad Əhmədov işğalçı düşməndən qisas almaq üçün həmişəlik şanlı hərbi formanı geyinməyə qərar verib. Müddətdən artıq hərbçi olaraq Goranboyda "Həmlə" taborunda xidmətə başlayıb. Vətən müharibəsində Tərtərin Talış kəndindən başlayaraq Murovdağ zirvəsinin, Suqovuşanın, Zəngilanın, Kəlbəcərin və "Pişik-qaya" deyilən strateji əhəmiyyət daşıyan yerin alınmasında verilən tapşırıqların öhdəsindən layiqincə gəlib. Ölümündən sonra "Vətən uğrunda" və digər medallarla təltif olunub.